# Orta əsrlərdə mütəfəkkirlərin həsəd hissi ilə bağlı fikirləri

**Ülkər Zakirqızı (Məmmədova)**
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: u.z.m-9-9@ mail.ru

**Annotasiya.** Dövründən asılı olmayaraq elə hisslər vardır ki, onlar dəyişməz qalır. Cəmiyyətdə insanların davranışları, bir-birinə münasibətləri zamanın fərqliliyinə baxmayaraq, bənzərdirlər. Dəyişən ancaq əsrlər, illər və fərdlər olur. Hər dövrün bəlası sayılan, dərinləşdikcə ağır faciələrlə nəticələnən hisslərdən biri həsəddir. Həsəd elə bir duyğudur ki, cahillərdə istedadlı, bacarıqlı insanların uğurlarına mənfi münasibət yaradır, əsassız şəkildə qarşıdurmaya səbəb olur. Məqalədə orta əsrlərdə alim və mütəfəkkirlərimizin qarşılaşdıqları bu maneələr təhlil olunur. Qətran Təbrizinin (1012-1091), Xətib Təbrizinin (1030-1109), Eynəlqüzat Miyanəcinin (1099-1131), Şihabəddin Yəhya Sührəvərdinin (1154-1191), Xaqani Şirvaninin (1126-1199), Nizami Gəncəvinin (1141-1209) yaradıcılıqlarından nümunələr verilir. Cəmiyyətdə baş verən bu qərəzli münasibətlər mütəfəkkirlərin əsərlərindən nümunələr gətirilərək təhlil olunur.
**Açar sözlər:** Orta əsrlər, Azərbaycan, ədəbiyyat, cəmiyyət, həsəd hissi

**Məqalə tarixçəsi:** göndərilib – 07.06.2022; qəbul edilib – 17.06.2022

# Thinker's opinions in Middle Ages on the feeling of Envy

**Ulkar Zakirgizi (Mammadova)**
Doctor of Philosophy in Philology
Institute of Literature named after Nizami Ganjavi of ANAS. Azerbaijan.
E-mail: u.z.m-9-9@ mail.ru

**Summary:** Regardless of the throughout epoch, there are feelings that remain unchanged. The behavior of people in society and their relationships with each other are similar, despite the difference in historic date. Only centuries, years and characters have undergone change. Envy is one of the feelings that is considered the scourge of all ages and which, as it deepens, leads to serious tragedies. It is an emotion that creates in the ignorant a negative attitude towards the success of talented and skilful men, causing causeless conflicts. The article describes these obstacles that medieval scientists and thinkers. Examples are given from the works of Qatran Tabrizi (1012-1091), Khatib Tabrizi (1030-1109), Aynalkuzat Miyaneji (1099-1131), Shihaba al-Din Yahya al-Suhrawardi (1154-1191), Khaqani Shirvani (1126-1199), Nizami Ganjavi (1141-1209). These prejudices in society were analyzed using examples from the works of thinkers.
**Keywords:** Middle Ages, Azerbaijan, literature, society, envy

**Article history:** received – 07.06.2022; accepted − 17.06.2022

## Giriş / *Introduction*

Tarix boyu hər zaman cəmiyyətdə xeyirlə şərin, güclü ilə zəifin, fəzilətlilə cahilin mübarizəsi olmuşdur. Bu mübarizə həyatın mənfi tərəfləri kimi bütün dövrlərdə özünü göstərmişdir. Müsbət və mənfi qütblərin qarşıdurması, mübarizəsi cəmiyyətin bəlası sayılmışdır.

Orta əsrlər Azərbaycan ədəbiyyatında insan və cəmiyyətlə bağlı çoxlu sayda nümunələrə rast gəlinir. Cəmiyyətdə baş verən haqsızlıqlar, ədalətsizliyə etiraz edən üsyankar çıxışlar, həqiqət uğrunda mübarizələr daim ədəbi əsərlərdə özünəməxsus yerə sahib olmuşdur. Şair və ədiblər bu barədə yazarkən çətinlikləri cəmiyyətin ümumi bəlası kimi göstərməklə yanaşı, şəxsi həyat problemini, yaşadıqları maneələri mürəkkəblə sətirlərə köçürmüşlər. Onların yaradıcılığında rast gəlinən bu mövzu fəzilət qarşısında cahillərin həsəddən, acizlikdən doğan hücumlarına etiraz idi.

### Əsas hissə / *Main Part*

Həsəd hissi bütün dövrlərdə cəmiyyətin bəlası sayılmışdır. Azərbaycanın elm və ədəbiyyat tarixinə nəzər saldıqda həmin bəlanın qurbanı olmuş neçə-neçə şəxsiyyətin adını söyləmək mümkündür. Həyatın bu acı reallığı eyni zamanda ədəbiyyatın aparıcı mövzularından olmuşdur.

Orta əsrlərdə cəmiyyətin cəhalət və həsəd girdabının qurbanı olmuş, təqiblərə məruz qalmış azərbaycanlılardan bəhs edərkən Eynəlqüzat Miyanəci (1099-1131), Şihabəddin Yəhya Sührəvərdi (1154-1191) yada düşür. Bir çox görkəmli şəxsiyyətlər fəaliyyətləri boyu belə bir çətinliklə həyatlarını sürmüş, əsərlərində bunu anlatmışlar.

Cəmiyyətdə bacarığına görə həsədlə qarşılaşmış və həyatında bununla bağlı mənbələrdə maraqlı əhvalatın yer aldığı azərbaycanlı şəxsiyyətlərdən biri də Xətib Təbrizidir (1030-1109). Bütün məxəzlərdə Xətib Təbrizi "Dilin və nəhvin imamlarından biri", "Ədəbiyyat sahəsində Bağdad şeyxi", "Çoxlu əsərləri olan fəzilətli ədib", "Ədəbiyyat, nəhv və dil sahəsində bilici" kimi xatırlanmışdır.

Xətib Təbrizinin böyük xidmətlərindən biri onun Nizamiyyə mədrəsəsindəki fəaliyyətidir. "Nizamülmülk sultan Alp Arslanın dövründə ilk dəfə olaraq ərəb xilafətinin və İslam dininin mərkəzi olan Bağdad şəhərində Nizamiyyə mədrəsəsini açdırmışdır. Bu mədrəsənin Bağdadda açılmasının son dərəcə böyük tarixi əhəmiyyəti vardı. O, bununla Ərəb xilafəti ilə əlaqə saxlamaqla bərabər, həmin tipli mədrəsələrin başqa şəhərlərdə açılması üçün də icazə almışdır. Beləcə, həmin mədrəsələr Nişapur, Bəlx, Herat, Bəsrə, Mosul və başqa mədəniyyət ocaqlarında yaranmışdı" [8, s.57]. Nizamiyyə mədrəsəsinin onlarla alimin, ədibin, şairin yetişməsində əvəzsiz rolu olmuşdur.

Mənbələrdə bildirilir ki, Bağdadda Nizamülmülk Nizamiyyə mədrəsəsini yaradarkən Əbu Zəkəriyyə kitabxananın xəzinədarı təyin olunur. Nizamülmülk hər il mədrəsəni ziyarət edər, onu özü maliyyələşdirərmiş. Onu burada dəbdəbəli şəkildə qarşılayar, şərəfinə şeirlər söylənilər, alimlər bir yerə toplaşar uğurları, problemləri barədə Nizamülmülkə məlumat verərmiş. Görüşlərin birində dövrünün alimlərindən biri Nizamülmülkə yaxınlaşıb ona demişdir: "Sənin etdiklərin bu böyük işləri səndən əvvəl heç kim etməmişdir. Hər şey çox yaxşıdır, yalnız bir şeydən başqa. Bu da Əbu Zəkəriyyə Təbrizinin kitabxananın xəzinədarı olmasıdır. O, bu iş üçün çox gəncdir". Əbu Zəkəriyyə həmin böyük alimin sözlərindən bərk incimiş, lakin Nizamülmülk burada da öz böyüklüyünw göstərmişdir. Vəzir mədrəsənin başçısından soruşmuşdur: "Əbu Zəkəriyyənin mədrəsədən qazancı nə qədərdir?" Müdir ona demişdir: "On dinar". Müdrik vəzir cavabında bildirmişdir: "Bu məbləği on beş et ki, deyildiyi kimi? on dinar ona kifayət etməz". Əbu Zəkəriyyə əvvəlcə həmin yaşlı alimin qərəzli sözlərindən bərk incimiş, lakin vəzirin ona verdiyi bu böyük qiymətdən qürurlanmışdır. Bu fikri söyləyən alim isə dediyindən utanmışdır.

Azərbaycan ədəbiyyatı tarixində müxtəlif dövrlərdə yaşamış şairlərin, ədiblərin yaradıcılığında qarşılaşdıqları haqsızlıqdan, paxıl insanların məkrli hücumundan gileylənən nümunələr vardır.

Azərbaycan ədəbiyyatı tarixində farsca şeirlər yazan ilk şair Qətran Təbrizinin (1012-1091) yaradıcılığında həsədlə bağlı fikirlərə rast gəlinir. O, cahil insanlara ünvanladığı bir şeirində yazmışdır:

*Onun düşməni nadandır, bəli, doğru demişlər ki,*
*Nadan həmişə qanana düşmən olar.* [7, s.32]

Şair cəmiyyətdə cahillərin bacarıqlı insanlara qarşı düşmən münasibətdə olduğunu bildirərək bunu təbii qəbul etmişdir. İnsan xislətinə xas bu keyfiyyətdən yaranmış qarşıdurma, hücumlar hər zaman olacaqdır.

Digər bir şeirində isə şair fəzilətinə görə ona həsəd aparan bədxahlarının artmasından gileylənir:

*Mənə bol nemət verdiyinə görə paxıllarım artıb,*
*Sən bu zülmü rəva görübsən, indi bəs nə xəyal edirsən?!* [4, s.318]

Qətran Təbrizi istedadı Tanrının bəzi adamlara bəxş etdiyi nemət saymışdır. Bu nemət cəmiyyətdə hər kəs tərəfindən xoş qarşılanmırdı. Çünki seçilmiş insanların fəziləti, bacarığı ona bərabərini etməyə qadir olmayanlarda həsəd oyadırdı. Bu səbəbdən də, şair istedadına qarşılıq paxıllarının artdığından gileylənirdi.

Qısa ömür sürmüş Eynəlqüzat Miyanəci (1099-1131) hələ gənc yaşlarından öz iti mühakiməsi və orijinal fikirlərilə diqqəti cəlb etmişdir. Eynəlqüzat Miyanəci fəzilət qarşısında aciz qalan cahillərin nifrətini, hücumunu sakit qarşılayırdı. Mütəfəkkir belə adamlara cavab verməyi mənasız sayırdı:

*Niyyətin qüdrəti məni qürbət evinə endirdi*
*Əgər istəsəydim, qovğa düzəltmədiyim bir işdən yapışardım.*
*Axmaqlığı üzrə ona kömək göstərərdim, buna hətta fitri*
*eyfiyyət deyilərdi*
*Əgər ağlı olsaydı, onu ağılda məğlub etməyə çalışıb*
*qələbə qazanardım.* [5, s.2]

Eynəlqüzat Miyanəci zindana salınmasının, qürbət elə aparılmasının, ümumiyyətlə, bütün əzablarının səbəbi kimi məhz cahil insanların gözlərini kor edən həsəd hissini göstərirdi.

Bəzən mütəfəkkir öz halını qədim dini rəvayətlərdən nümunə verməklə təsvir edir. Burada o, Yaqub peyğəmbərin oğlu Yusiflə bağlı hekayəti xatırladır. “Gizli deyildir ki, həsəd Yusifin qardaşlarını onun qətlinə şövq etmişdir. O sarıdan ki, onu atalarına özlərindən daha sevimli görmüşlər”. Eynəlqüzat Miyanəci ona qarşı haqsız hökmləri, ittihamları, söylədiyi fikirlərin məqsədli şəkildə səhv yozumu, həbsini və həyatının məchul sonunu günahsız Yusifin məkrlə quyuya atılması, başına müsibətlərin gəlməsilə müqayisə edir. Mütəfəkkir bu müqayisəsilə qarşılaşdığı hücumları insan xislətinin mənfi tərəfləri kimi qarşılamışdır.

Eynəlqüzat Miyanəci həsəd, qibtə hissini ən təhlükəli şey saymışdır. O, bildirirdi ki, həsəd həlakedici şeylərin böyük günahlarındandır. Fikrini qüvvətləndirmək üçün alim Rəsulillahın hədisinə əsaslanır. “Üç şey var ki, ondan bir kəsin nicatı yoxdur: zənn, yüngülxasiyyətlik və həsəd”. Qurtulması imkansız sayılan bu mənfiliklərin cəmiyyətə vurduğu zərər böyükdür. Eynəlqüzat Miyanəci həsədi təhlükəli amil saymış və bildirmişdi ki, “od odunu yediyi kimi həsəd də yaxşı olanları yeyir”. Alim peyğəmbərin digər fikrinə əsaslanaraq qeyd edir ki, altı adam məşhərdən qabaq altı şeyə görə cəhənnəmə daxil olur: cövrlü sultanlar, təəssübkeş ərəblər, təkəbbürlü dehqanlar, cahillik edən qara camaat, xəyanətli tacirlər və həsədli alimlər.

Eynəlqüzat Miyanəci əsərində cəmiyyətdə alimə münasibətdən bəhs edərkən şəxsi fikirlərinin düzgün qiymətləndirilməməsini dövrün bəlası saymışdır. “Gənclik halında yazdığım risaləni düşmənlərim olan həsəd aparanlar bəhanə etmişlər, onunla üstümə düşmüşlər” [5, s.26].

Mütəfəkkirə şöhrət gətirən də, məhvinə səbəb də onun yüksək əsərləri idi. O, özü bunu anlayaraq ona həsəd aparılmasına təəccüblənmirdi. “Mənə həsəd aparılması təəccüblü deyildir. Mən kitablar yazmışam. Əlli-altmış yaşlılar nəinki onları yazmaqda, tərtib etməkdə, hətta başa düşməkdə acizdirlər” [5, s.39]. O, yaşının, həyat təcrübəsinin azlığına baxmayaraq, yazdığı əsərlərin, söylədiyi bütün fikirlərin əhəmiyyətini başa düşürdü. Məhz bu səbəbdən də, ona qarşı

həm cahillikdən, həm də buna bənzərini yaratmaqda aciz qalan paxılların kəskin hücumları artırdı. Gənc yaşında bu qədər fəzilətlərə sahib olması çoxlarını qıcıqlandırırdı.

XII əsrin Şirvan məktəbinin görkəmli nümayəndəsi Xaqani Şirvani (1126-1199) yaradıcılığına nəzər saldıqda öz istedadını dəyərləndirməsini, fərqliliyini önə çəkdiyi şeirlərinə rast gəlinir:

*Mən əmirəm, dilim ərşin sərvətinə bir açardır,*
*Dediyimə Məhəmmədin hədisində sübut vardır.*

*Dəfinələr, xəzinələr içindəyəm hər zaman, bax,*
*Onlar isə inci tapmaq həvəsilə ələr torpaq.*

*Bu aləmə gələn gündən ağlın mənəm bir çırağı,*
*Onlar isə kordur tamam, görməyirlər heç uzağı.*

*Dərrakəmin, qüdrətimin düşmənidir bu paxıllar,*
*Bax, bu sehri, xariqəni riyakarlar edir inkar.* [6, s.109]

Göründüyü kimi, şair məziyyətlərini, yüksək zəkasını dəyərləndirərkən özünü zəngin xəzinə sahibi sayır. Bu keyfiyyətlərin çoxlarında rastlanmadığını xatırladaraq belələrini torpaqda inci axtarışına çıxmış hesab edir. Öz zəkasının ziyasından qürurla danışan şair onun nurunun ətrafa da işıq saçdığını çəkinmədən söyləyir. Bu zəka işığını görməyənləri isə “kor” adlandırır. Məhz həmin məziyyət Xaqani Şirvani istedadına həsəd oyatmış, ağlı və dərrakəsinin gücü ona qibtə ilə yanaşan düşmənlər qazandırmışdır. Şairin bacarığını görmək istəməyərək inkar etmişlər. Digər beytlərində isə bütün şər qüvvələrə sinə gərmək iqtidarında olduğunu bildirərək əlavə etmişdir:

*Ad qoşunu olsa onlar, mənim yel tək qələmim var,*
*Onlar Yəcuc tayfasısa, mənim nitqim sura oxşar...*

*Bəziləri eşidərkən şerimdəki fəsahəti,*
*Beyinləri alov tutar, artır mənə küdurəti.* [6, s.110]

Şairin burada öz qüdrətini öyməsində orta əsrlərdə geniş yayılmış dini rəvayətlərdən ustalıqla istifadə etmişdir. Xaqani Şirvani şeirində əleyhidarlarını dinsiz Ad qəbiləsilə müqayisə edərək istedadı ilə onlara üstün gələcəyini bildirmiş, özünü dinsiz camaatın məhvinə səbəb küləyə bənzətmişdir. İkinci misrada əleyhidarlarını dağıdıcılıqda, cahillikdə Yəcuc tayfasına bənzədərək özünü onlardan çəkinmədiyini, daha güclü olduğunu bildirmiş və öz nitqini sura bənzətmişdir. Xaqani Şirvani yaradıcılığında həsədlə bağlı maraqlı yanaşma vardır:

*Xilqətin çirkabıdır onlar təbiət tortası,*
*Təkcə acgözlük, paxıllıqdır bu əşrarə hünər;*

*Onları etmiş tamah dibsiz quyu içrə əsir,*
*İp kəsilmiş, qıç qırılmış, yox nicat həşrə qədər.*

*Söyləyirlər ki, vəliəhdik cahanda Adəmə,*
*Bu, yalandır, hər biri İblisdən dərs öyrənər.* [6, s.119]

Mütəfəkkir məsələyə başqa istiqamətdən yanaşmışdır. Bu hücumlarda həsəd çəkilən insanların hər hansı günahı vardırmı? Bütün davranışları süzgəcdən keçirərək, o, həsəd çəkilənin günahı olmadığını söyləmişdir. Allah həsəd çəkiləni fəzilətli yaratmışdır. Əgər məsələnin əsası bu olmasaydı, həsəd aparan onun kimi fəzilətli olmağı arzulamazdı. Alim qibtə çəkənləri də

anlamağa çalışmışdır. Çünki o, bacarıqda ondan üstün olanlara qısqanclıqla yanaşmışdır. Çünki bu fəzilət qarşısındakı acizlikdən yaranmışdır.

Paxıl insanlar haqqında başqa bir şeirində isə Xaqani Şirvani yazmışdır:

*Sırf yalandır qəlbi əyri kəslərin dil əzbəri,*
*Fitnə əhli onların olmuş hər işdə rəhbəri.*

*Şeytan övladı olub, girmişlər insan cildinə,*
*Xəlqə olmuşlar ləkə, bundan utanmaz üzləri.* [6, s.283]

Şair burada paxıl insanları əməllərinə görə "insan cildinə girmiş şeytan" adlandırır. O, onların çəkinmədən, sıxılmadan mənfi hərəkətlərini davam etdirmələrini məzəmmətləyir.

Yaradıcılığı hər zaman Şərq və Qərb alimlərinin diqqət mərkəzində olan Nizami Gəncəvinin (1141-1209) zəngin irsi müxtəlif istiqamətlərdən öyrənilir. Söz sənətkarlığına "Sirlər xəzinəsi", "Xosrov və Şirin", "Leyli və Məcnun", "Yeddi gözəl", "İsgəndərnamə" kimi böyük əsərlər bəxş etmiş mütəfəkkirin yaradıcılığında hərisliyi, paxıllığı zaman və məkana sığmayan bir duyğu kimi qiymətləndirir:

*[Bu cahanda] heç bir ürək hərislikdən və həsəddən təmizlənməyib,*
*Bu torpağın üzündə [heç kimə] etibar yoxdur.* [2, s.148]

Şair bu fikirlərilə həsəddən qorunmanın yeganə yolu kimi insanlara çox inanmamağı məsləhət görür. Çünki bu mənfi hissin olmadığı məkan yoxdur. Bütün insanların qəlbində müsbət və mənfi duyğular kök atmışdır. Mənfiliklərdən qorunmaq çətin sayıldığından ətrafdakılara çox da inanmamaq lazımdır.

*Bir gün olar ki, yüz dənə pak çiçək,*
*Həsəd tozundan yerə sərilər.*

*Silahı yerə atdığım üçün mən gül kimi*
*Həsəd tikanından qaçmışam –*
*Ki, əynimdəki [cındır] arxalığım*
*Həsəd alovunu təlq ilə söndürsün.*
*Bu qorxunc yolu ölənə qədər*
*Yalnız bu minvalla başa vurmaq olar.* [3, s.46]

Nizami Gəncəvi qısqanc adamların məkrindən gileyənir. Lakin qəlblərdə alovlanan paxıllıq hissinin söndürülməsini çətin sayır. Şair qəbul edir ki, həyatı boyu belə məkrli insanların əhatəsində yaşamalıdır. Çətinliklə də olsa, özünü onların hücumundan, zərbələrindən qorumalıdır.

*Təbim kölgədən [paxıllardan] təhlükədə olsa da,*
*Hünər [talant] və elm mənə kölgə [sayə] salır.*
*Dünyada kölgə ilə təqib olan elə bir adam yoxdur ki,*
*O, quzu kimi yol getsin, qurd isə dalınca gəlməsin.* [3, s.50]

Nizami Gəncəvi istedadı və biliyinə görə hücumlara məruz qaldığını bildirir. Şair paxıl insanları "kölgə", "qurd" adlandırır. İstedadlı insanları hər zaman paxılların kölgəsi izləyir.

*Şeir mənim arxımdan su içir,*
*O, [şeir] mənim zəmanəmdə şöhrət yapmışdır.*
*Bu duzsuzlar [şairlər] ki çörək yeyirlər,*

*Mənim sayəmdə dünyanı (basıb) yeyirlər,*
*Ov yıxmaq aslan işidir,*
*Tülkü isə qarnını aslanın şikarından doyurur,*
*Mənim bir ağzım və boğazımla yeməyimdənsə,*
*Yaxşıdır ki, xalq məndən yesin.*
*Paxıl bu məsləhəti qəbul etmək əvəzinə,*
*Məndən, səndən iraq, saqqız çeynəməkdədir [qeybət qırmaqdadır].* [1, s.48]

Nizami Gəncəvi öz məziyyətlərini çəkinmədən dilə gətirir. Sözünün, şeirinin dəyərini yüksəkdə tutur, çoxlarının ondan faydalanandığını bildirir. Belə bir xüsusiyyət təbii ki, ətrafdan həsəd doğurur. Paxıllar yüksək məziyyəti qiymətləndirmək əvəzinə hər cür ləkə yaxmağa çalışırlar.

### Nəticə / *Conclusion*

Cəmiyyətdə insanların qarşılaşdığı paxıllıq və həsəddən doğan hisslər bəzən şəxsiyyətlərin problemlərlə, çətinliklərlə həyat sürməsinə, bəzən də, faciəvi son yaşamasına səbəb olmuşdur. Cəmiyyətdə qazanılan uğurlar qiymətləndirilərkən sahibinə şöhrətdən daha çox qərəzli hücumlar, əleyhidarlar qazandırmışdır. Mütəfəkkirlər bu cəhəti əsərlərində işıqlandırarkən öz məziyyətlərini sadalamaqla yanaşı, paxıl insanların məkirli niyyətlərini pisləmişlər. Azərbaycan ədəbiyyatı tarixində həmin mövzu ilə əlaqəli çoxlu nümunələr vardır. Burada yalnız Qətran Təbrizinin, Xətib Təbrizinin, Eynəlqüzat Miyanəcinin, Şihabəddin Yəhya Sührəvərdinin, Xaqani Şirvaninin, Nizami Gəncəvinin həyatından, əsərlərindən nümunələr gətirilmiş və təhlil olunmuşdur. Bu şair və ədiblər ətrafdakı insanların həsəddən doğan mənfi münasibətini yaradıcılıqlarında özünəməxsus şəkildə sətirlərə köçürmüşlər. Bu nümunələrdə problemlərin, hücumların kökündə eyni səbəb dayansa da, ifadə tərzinə görə fərqlənmişdir.

### Ədəbiyyat / *References*


1. Gəncəvi Nizami. Leyli və Məcnun. Tərcümə, izahlar və qeydlər prof. Mübariz Əlizadə. Bakı, 1981.
2. Gəncəvi Nizami. Sirlər xəzinəsi. Tərcümə, izahlar, şərh və lüğət R.Əliyev. Bakı, 1981.
3. Gəncəvi Nizami. Yeddi gözəl. Tərcümə, izahlar və qeydlər prof. Rüstəm Əliyev. Bakı, 1983.
4. Hüseynov X. Qətran Təbrizi. Azərbaycan ədəbiyyatı tarixi: [7 clilddə], c.2. Bakı, 2007.
5. Əl-Miyanəci ayn əl-Qudat. Şəkva əl-ğərib. Tehran, 1341.
6. Şirvani Xaqani. Seçilmiş əsərləri. Tərt. ed. M.Sultanov. Bakı, 2004.
7. Təbrizi Qətran. Divan. Tərc. edən Q.Beqdeli. Bakı, 1967.
8. Zakirqızı (Məmmədova) Aytək. Türk düşüncəsi və türkçülük tarixi haqqında. Bakı, 2014.


## Средневековые мыслители о зависти


**Улькер Закиргызы (Мамедова)**
Доктор философии по филологии
Институт литературы имени Низами Гянджеви НАНА. Азербайджан.
E-mail: u.z.m-9-9@ mail.ru



**Резюме.** Вне зависимости от эпохи есть чувства, которые остаются неизменными во все времена. Поведение людей в обществе и их отношения друг с другом схожи, несмотря на разницу во времени. Меняются только века, годы и личности. Зависть – одно из чувств,

которое считается бичом всех эпох и которое по мере своего углубления приводит к серьезным трагедиям. Это – эмоция, создающая у невежественных негативное отношение к успехам талантливых и способных людей, вызывающая беспричинные конфликты. В статье описываются эти препятствия, с которыми сталкивались ученые и мыслители в средние века. Дано примеры из произведений Катрана Тебризи (1012-1091), Хатиба Тебризи (1030-1109), Айналкузата Мийанеджи (1099-1131), Шихабаддина Йахйа Сухраварди (1154-1191), Хагани Ширвани (1126-1199), Низами Гянджеви (1141-1209). Эти предрассудки в обществе были проанализированы на примерах из произведений мыслителей.

**Ключевые слова:** Средние века, Азербайджан, литература, общество, зависть